# Əzəli yurda qayıdış uğurların təcəssümüdür



**Ermənistan tərəfindən 9 şəhərin, 300-dən çox kəndin yer üzündən silinməsi vəhşilikdir. Bu barədə Prezident İlham Əliyev deyib: "Bəlkə də İkinci Dünya müharibəsindən sonra şəhərlərin bu miqyasda dağıdılması dünyanın heç bir yerində baş verməyib. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi yer üzündən silinib". Bütün bu ərazilərdə yenidənqurma və abadlaşdırma aparılır, şəhərlərimiz yeni görkəminə qaytarılır.**

Füzulidə yenidənqurma geniş vüsət alıb. Rəşadətli Azərbaycan Ordusu 2020-ci il oktyabrın 17-də Füzulini işğaldan tam azad etdi. Qürurverici məqam isə müharibədən sonra qısa müddət ərzində Füzulidə inşa edilən beynəlxalq hava limanının istifadəyə verilməsidir.

**(davamı 5-ci səhifədə)**





## Günün siyasi nəbzi

# Əzəli yurda qayıdış uğurların təcəssümüdür








**(əvvəli 1-ci səhifədə)**

Belə ki, 2021-ci il sentyabrın 5-də Bakıdan havaya qalxan "Airbus A340-500" tipli "Qarabağ" sərnişin təyyarəsi yeni inşa olunmuş ilk və möhtəşəm hava limanında eniş etdi. Ermənilər tərəfindən tamamilə dağıdılmış və xarabalığa çevrilmiş şəhərdə inşa edilən hava limanı işğaldan azad olunan ərazilərimizdə müasir hava nəqliyyatının qurulması üçün mühüm əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyev tərəfindən Füzuli Beynəlxalq Hava Limanı "Qarabağın hava qapısı" adlandırılıb. Sözügedən hava limanının istifadəyə verilməsi Qarabağın və digər bölgələrimiz arasında əlaqələrin daha da genişlənməsinə imkan verəcək.

Bu il iyul ayının 17-dən etibarən Füzuli şəhərinə müntəzəm reyslər açılıb və əhalinin gediş-gəlişi ən yaxşı şəkildə təmin edilib.

Dövlət başçısının 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı"na müvafiq olaraq indiyə qədər Füzuliyə 822 ailə (3132 nəfər) köçürülüb.

Doğma yerlərinə qayıdan əhali məskunlaşdıqları ərazidə uyğun vakansiyalar üzrə işlə təmin olunur. Bu şəxslər dövlət və özəl müəssisələrdə işləyə, fərdi sahibkar kimi fəaliyyət göstərə bilərlər.

Füzuli şəhərində ikinci və üçüncü yaşayış məhəllələrinin layihələndirilməsi davam etdirilir. Özbəkistan tərəfindən tikilmiş 960 yerlik Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb, Qazaxıstan tərəfindən 600 yerlik Uşaq Yaradıcılıq Mərkəzi, həmçinin 240 yerlik uşaq bağçası artıq istifadəyə verilib. Yeni tikilmiş 38 binanın ətrafında bir park salınıb və əlavə olaraq mərkəzi park da tikiləcək.

6 kəndin təməli qoyulub və Dövlətyarlı kəndinin torpaq-tikinti işləri artıq başa çatıb. İlkin mərhələdə 450 evin tikintisi nəzərdə tutulur. Yaxın zamanda Dədəli kəndində də torpaq işlərinə başlanılacaq.

Qarabağda yenidənqurma layihələri uğurla reallaşır və əraziyə köçən ailələr işlə, lazımi şəraitlə təmin olunurlar. Böyük Qayıdış yaxın illər ərzində daha geniş vüsət alacaq və soydaşlarımız doğma yurd yerlərinə qayıdacaqlar.

**Ləman TƏHMƏZ.**